# Dövlət insan alveri ilə mübarizədə həmişə güclü iradə nümayiş etdirib

Aprelin 29-da Milli Məclisin İnsan hüquqları və Hüquq siyasəti və dövlət quruculuğu komitələrinin birgə iclası keçirilib. İclasda İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair illik məlumatı müzakirə edilib.

İllik məlumat barədə danışan İnsan hüquqları komitəsinin sədri Zahid Oruc bildirib ki, Azərbaycanda vətəndaşların sabit və təhlükəsiz şəraitdə yaşaması üçün möhkəm hüquqi və ictimai-siyasi baza yaradılıb, dövlətimiz həmişə insan alveri ilə mübarizə istiqamətində güclü iradə nümayiş etdirib.

Komitə sədri vurğulayıb ki, Daxili İşlər Nazirliyinin İnsan Alverinə qarşı Mübarizə Baş İdarəsinin yarandığı 17 ildən artıq müddətdə hər il mütəmadi olaraq illik məlumatlarını təqdim etməsi ölkəmizin hüquq-mühafizə siyasətində mütərəqqi ənənəyə çevrilib.

İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun Azərbaycan Respublikasında 2021-ci ildə insan alverinə qarşı mübarizəyə dair məlumatını qısa şərh edən komitə sədri bildirib ki, 8 bölmədən ibarət hesabatda bu sahədə vəziyyətlə bağlı ətraflı və sistemli mənzərə təqdim edilib. Məlumatda yer alan insan alveri cinayətlərinin dinamikasının statistik göstəricilərinə diqqət çəkən Zahid Oruc cinayətlərin sayının artmasına təsir edən qlobal tendensiyalardan danışıb.

Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsinin insan alverinə qarşı mübarizəyə verdiyi töhfələrdən söz açan Zahid Oruc itkin düşmüş 4000-ə qədər vətəndaşımızın taleyi barədə müxtəlif platformalarda daha sistemli şəkildə məsələ qaldırmaq imkanlarının yarandığını bildirib.

Komitə sədri insan alveri kimi mürəkkəb cinayətlə mübarizədə dövlət, hakimiyyət institutları, vətəndaş cəmiyyəti, bir sözlə, bütövlükdə xalqın birgə dəstəyinin önəmini vurğulayıb, məcburi əmək və uşaq əməyi istismarı, qurbanların müdafiəsi, cəmiyyətə reinteqrasiyası və digər vacib istiqamətlərdə yeni yanaşmaların tətbiqi, aidiyyəti dövlət orqanları və vətəndaş cəmiyyəti institutları ilə qarşılıqlı əlaqədə sistemli işin qurulması ilə bağlı fikirlərini bildirib. Qeyd edib ki, bu sahədə internet resursların imkanlarından faydalanmaq, sosial şəbəkələrdə aktivliyi inkişaf etdirmək vacibdir.

Sonra DİN-in İnsan Alverinə qarşı Mübarizə Baş İdarəsinin rəisi, polis general-mayoru Həzi Aslanov İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair məlumatını təqdim edib.

Baş idarə rəisi çıxışında insan alveri ilə mübarizə sahəsində qanunvericilik tədbirləri, profilaktika və maarifləndirmə işləri, təlim və treninqlər, beynəlxalq əməkdaşlıq, məcburi əməyin qarşısının alınması sahəsində tədbirlər, cinayət təqibi və qurbanlarla iş barədə ətraflı məlumat verib, insan alveri ilə mübarizənin nəticələrinə dair statistik göstəriciləri diqqətə çatdırıb.

Bildirilib ki, insan alverinə qarşı mübarizəni və sosial reabilitasiyanı həyata keçirən dövlət orqanları və vətəndaş cəmiyyəti nümayəndələri peşə hazırlığının artırılması üçün ixtisasartırma kurslarına, təlim və treninqlərə cəlb ediliblər.

İnsan alverinə dair mövzular xüsusi təyinatlı təhsil müəssisələrində də tədris edilib, bu növ cinayətlərin profilaktikasında xüsusi əhəmiyyət kəsb edən kütləvi informasiya vasitələrinin imkanlarından da geniş istifadə olunub, hesabat dövründə xarici tərəfdaşlar və təşkilatlarla qarşılıqlı əlaqələrin yeni keyfiyyət səviyyəsinə yüksəldilməsi diqqət mərkəzində saxlanılıb.

Qeyd olunub ki, uşaq əməyinin istismarının qarşısının alınması məqsədilə reydlər hesabat ilində də davam etdirilmiş, ailə mühitindən, pedaqoji və ictimai təsir vasitələrindən kənarda qalan, küçələrdə işləyən və dilənçilik edən 450 uşaq aşkar edilib, müvafiq olaraq 95 valideyn barəsində inzibati tənbeh tədbirləri görülüb.

Hesabat ilində insan alveri cinayətlərinin aşkarlanması və təqsirkar şəxslərin məhkəmə məsuliyyətinə verilməsi sahəsində fəaliyyət də məqsədyönlü xarakter daşıyıb. Həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində 156 insan alveri, 3 məcburi əmək, habelə insan alveri məqsədilə sənədlərlə qanunsuz hərəkətlərlə əlaqədar 43 cinayət qeydə alınıb.

General-mayor Həzi Aslanov axtarışda olan 26 təqsirləndirilən şəxsdən 12 nəfərinin tutulduğunu qeyd edərək, xarici dövlətlərdə gizlənən cinayətkarların ekstradisiyasının çətinlikləri barədə danışıb. Bildirib ki, hesabat ilində 95 nəfər insan alveri qurbanı (94 qadın, 1 kişi) müəyyən edilib.

Qeyd olunub ki, zərərçəkmişlərin reabilitasiyası və reinteqrasiyası üçün zəruri tədbirlərin görülməsi diqqətdə saxlanılıb, ümumilikdə qurbanların 8-i işlə təmin edilib, 23-ü peşə kursuna göndərilib, 56-sı ailəsinə qaytarılıb, 7-nə şəxsiyyəti təsdiq edən sənədlərin alınmasında köməklik göstərilib. Qurbanların uşaqları da diqqətdə saxlanılaraq 14 uşaq məktəbəqədər təhsil proqramına cəlb olunub, 9-nun atalığı müəyyən edilərək aliment alması, 15-nə doğum haqqında şəhadətnamənin verilməsi təmin olunub. Həmçinin hesabat ilində 152 Qaynar xəttinin proqram təminatı yenidən təkmilləşdirilib, daxil olan 4506 müraciət araşdırılaraq müvafiq tədbirlər görülüb.

Çıxışının sonunda Həzi Aslanov bu mühüm sahədə dövlət siyasətinin həyata keçirilməsində verdiyi dəstəyə, səmərəli əməkdaşlığa görə Milli Məclisə, vətəndaş cəmiyyətinə və mediaya təşəkkür edib.

Sənədin müzakirəsində Hüquq siyasəti və dövlət quruculuğu komitəsi sədrinin müavini Qüdrət Həsənquliyev, İnsan hüquqları komitəsi sədrinin müavini Tahir Kərimli, deputatlar Elşad Mirbəşiroğlu, Elşən Musayev, Vüqar İskəndərov, Nizami Səfərov, Naqif Həmzəyev, Tural Gəncəliyev, Nurlan Həsənov və QHT nümayəndələri İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun illik məlumatını müsbət qiymətləndiriblər. Çıxış edənlər insan alveri və məcburi əmək cinayətlərini doğuran səbəblər, cinayətlərin dinamikası, profilaktikası, insan alveri qurbanlarının reabilitasiyası və reinteqrasiyası kimi məsələlərlə bağlı fikirlərini bildirib, insan alveri və məcburi əmək cinayətlərinin müəyyən edilməsi məqsədilə monitorinqlərin keçirilməsi, insan alveri cinayətlərinin aşkarlanması və təqsirkar şəxslərin məsuliyyətə cəlb edilməsi kimi məsələlərlə bağlı rəylərini səsləndiriblər.

Müzakirələrə yekun vuran Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli komitələrin birgə iclasının səmərəli və işgüzar şəraitdə, geniş formatda keçirilməsini cəmiyyətin və dövlətin insan alveri ilə mübarizəyə verdiyi önəmin və bu sahədə ciddi siyasi iradənin mövcudluğu ilə bağlı olduğunu bildirib. İnsan alveri ilə mübarizədə Azərbaycanın keçdiyi yoldan və əldə etdiyi müsbət nəticələrdən söz açan birinci vitse-spiker insan alverinə qarşı mübarizənin hüquqi bazasının möhkəmləndirildiyini vurğulayıb, bu sahədə vətəndaş cəmiyyəti institutlarının fədakar əməyini qeyd edib və maarifləndirmənin əhəmiyyətinə toxunub, qaldırılan məsələlərə münasibətini açıqlayıb. O, insan alveri və istismarı cinayətlərinin artmasına müasir dünyada baş verən proseslərin təsirindən söz açaraq bu sahədə xarici faktorların rolunun minimuma endirilməsinin bir çağırış kimi qarşıya çıxdığını bildirib.

İclasın sonunda İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair məlumatı Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə edilib.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

Azərbaycan.- 2022.- 30 aprel.- S. 8.